**Siyəzənin timsalında Azərbaycanda son illər ərzində gedən inkişafı görürük.**
**İlham ƏLİYEV**



# ÇIRAQ

**12 iyun 2019-cu il № 4 (259) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə**



***Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur... Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır...***

***İyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir. Əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır.***

******************************

***Bu günkü Azərbaycan reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. 1994-cü ildə başlanmış və uğurla davam etdirilən neft-qaz siyasətimiz bu gün Azərbaycanın reallıqlarını şərtləndirən əsas amillərdən biridir. Bu gün Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Biz regional inkişaf proqramını uğurla icra edirik. Əlbəttə, bundan sonra da çalışmalıyıq ki, büdcəmizi daha çox qeyri-neft sektorunun hesabına təmin edək və buna yaxınlaşırıq. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bizim üçün prioritet sektor olaraq qalacaqdır.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

## MÜSTƏQİLLİYİMİZ SARSILMAZDIR, ƏBƏDİDİR

28 May-Respublika Günü münasibətilə Gənclər Mərkəzində bayram tədbiri keçirilmişdir. Tədbir başlanmazdan öncə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov və iştirakçılar Mərkəzdəki Bayraq Muzeyini ziyarət etmişlər.



Tədbiri giriş sözüylə İcra başçısı N. Novruzov açmış, bayram təbriklərini çatdırmışdır. O, Şərqdə ilk dəfə olaraq xalqımızın öz müstəqillik arzusuna qovuşduğunu, cəmi 23 ay yaşamasına baxmayaraq, dövlət quruculuğu sahəsində zəruri tədbirlərin görüldüyünü, sonralar imperiya əsarətində yaşamış xalqımızın müstəqil dövlət qurmaq üçün azadlıq mübarizəsinə qalxdığını diqqətə çatdırmışdır. Xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı nəticəsində dövlət müstəqilliyimizin məhvolma təhlükəsindən xilas olunduğunu qeyd etmişdir.

Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarova Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasının 101-ci ildönümü ilə əlaqədar məruzə etmişdir.

Daha sonra 3 saylı tam orta məktəbin direktoru Pərvin Ağasıyev, Uşaq Gənclər İnkişaf Mərkəzinin direktoru Şəms Hüseynova və 1 saylı tam orta məktəbin müəllimi Sevinc Mikayılova çıxış etmişlər. Onlar Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi şərəfli yol barədə məlumat vermişlər. Demokratik Respublika dövründə həyata keçirilən tədbirlərin müstəqil dövlətçiliyimizin əsaslarının yaradılmasında və gələcək inkişaf yolunun müəyyənləşdirilməsində çox mühüm rol oynadığını vurğulamış, ölkəmizin müstəqillik yollarında əldə etdiyi uğurlardan danışmışlar. Qeyd etmişlər ki, bu günkü müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Məhz ümummilli lider Heydər Əliyevin yorulmaz səyləri sayəsində müstəqilliyimiz sarsılmaz və dönməz xarakter almışdır.

Xalqımızın öz tarixinə, milli irsinə, dövlətçilik ənənəsinə daim sadiq olduğunu bildirən natiqlər Ulu Öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləmişlər.

**Qeyd:** ***Rayonun idarə, müəssisə və təşkilatlarında, təhsil, səhiyyə və mədəniyyət ocaqlarında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 101-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilmişdir.***

**«Çıraq»**

***Şura iclasında***

## Qarşıda duran vəzifələrdən danışılmışdır

Siyəzən Rayon İcra Hakimiyyəti başçısı yanında Şura iclası keçirilmişdir. Şura iclasını Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzov açmışdır.

Şura iclasında aşağıdakı məsələlər dinlənilərək müzakirə edilmişdir:

I. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə və «Torpaq icarəsi haqqında» Qanununa uyğun olaraq Siyəzən rayonunda dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan kənd təsərrüfatı təyinatlı torpaqların təyinatı üzrə istifadə vəziyyəti haqqında.»

II. Siyəzən rayonunun ümumtəhsil məktəblərində Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»dan irəli gələn vəzifələrin icrası vəziyyəti haqqında».

Adıçəkilən I məsələ barədə Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Zəfər Əliyev, II məsələ barədə isə Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarova məruzə etmişlər.

Şura yığıncağında müzakirəyə çıxarılan məsələlər ətrafında çıxış edənlər mövcud durumla yanaşı qarşıdakı vəzifələrə də toxunmuşlar.

Yığıncaqda Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzov yekun sözü söyləmiş, görülən işləri əhatəli təhlil edərək, qarşıda duran vəzifələrdən bəhs etmişdir.

Sonda müzakirə olunan məsələlərlə bağlı qərar qəbul edilmişdir.

**«Çıraq»**

## Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilmişdir.



Siyəzən Mədəniyyət Mərkəzində təşkil edilmiş Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatı Gənclər Birliyinin V konfransında Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov, YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov və təşkilatın digər idarə heyəti üzvləri, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, rayonda çalışan və təhsil alan fəal gənclər, KİV nümayəndələri iştirak edirdilər.

Konfransı YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov açaraq gündəlikdə duran məsələlər barədə məlumat vermişdir.

YAP Siyəzən rayon təşkilatının Gənclər Birliyinin sədri Rəşad Rəhmanov ötən dövr ərzində görülən işlər barədə məlumat verərək qeyd etmişdir ki, bu gün Azərbaycanda bütün istiqamətlərdə uğurlu dövlət siyasəti aparılır və bu siyasət bilavasitə Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müdrikliklə müəyyən edilir: «Aparılan mütərəqqi siyasətlərdən biri də gənclər siyasətidir ki, məhz gənclərimiz Ulu Öndər Heydər Əliyev ideologiyasının öyrənilməsində, yaşadılmasında əhəmiyyətli rol oynayır, istər ölkəmiz daxilində, istərsə də ölkədən kənar fəaliyyətlərində Azərbaycanın adını daim zirvələrdə tuturlar. Çünki gənclik bizim gələcəyimizdir və hər bir gənc bilməlidir ki, Azərbaycanın daha uğurlu gələcəyi onun əlindədir.»



Sonra konfransın gündəliyinə uyğun olaraq, təşkilati məsələyə baxılmış, Kərimov Elvin Qorxmaz oğlu YAP Siyəzən rayon təşkilatının Gənclər Birliyinin sədri seçilmişdir.

Konfransın işində iştirak edən Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov çıxış edərək qeyd etmişdir ki, ölkəmizdə bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu gənclər siyasəti həyata keçirilir. Bu siyasətin təməlində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs dayanır. Ölkəmizdə aparılan gənclər siyasəti bu gün də öz müsbət nəticələrini verməkdədir.

Ulu Öndər hər zaman gənc nəslə qayğı göstərib, gənclərin ictimai-siyasi həyatda fəal iştirak etməsini, onların sosial ehtiyaclarını, yüksək səviyyədə təhsil almalarını, asudə vaxtlarının səmərəli keçirmələrini, hüquqlarının müdafiəsini, onların hərtərəfli inkişafını təmin edib. Onun siyasi xəttini uğurla, şəraitin tələblərinə uyğun olaraq yeniləməklə davam etdirən cənab İlham Əliyev gənclərin işə dövlətin prioritet istiqamətlərindən biri kimi xüsusi diqqət ayırır. Bu gün Azərbaycanın inkişafı YAP-ın xətti ilə reallaşır. Ölkədə qazanılan hər bir uğur və nailiyyətin arxasında xalqın öz iqtidar partiyasına olan inamı dayanır. Bu gün siz gənclər birmənalı şəkildə bilməlisiniz ki, dövlətin siyasəti gənclərin gələcəyinə, sağlam fərd kimi yetişməyinizə, əsl vətəndaş və şəxsiyyət kimi formalaşmağınıza hesablanıb.

**«Çıraq»**

# BU, YENİ BİR BAŞLANĞICDIR

Keçən əsrin 60-cı illərində internat məktəbinə bir nəfər rəsm müəllimi göndərilir. Öz sənətinə vurğunluğu ilə seçilən və gözəl əl qabiliyyətinə malik bu müəllim məktəbdə dərnək təşkil edir. Qısa bir zamanda uşaqlarda rəssamlıq sənətinə olan maraq hədsiz dərəcədə artır. Hətta biri özünə peşə kimi heykəltaraşlıq sənətini seçir. Həvəskarların sayı isə lap çox olur.

İstedad nə vaxt üzə çıxır? Yəqin ki, ilk uğurlu addımlarda. Söz yox, əgər o "məktəb" davam etsəydi, təkcə həvəskarlar yox, həm də peşəkar rəssamlar yetişəcəkdi. Məhz yol açan, qayğı göstərən var olduğu üçün.

İnternat məktəbi yenə də durur, elə həmin yerindəcə fəaliyyətdədir. Amma... nə rəssam, nə də heykəltəraş yetişdirə bilmir. Çünki orada sadəcə, adını unutduğum həmin o rəsam müəllim çatışmır. Vəssalam.

Xızı camaatına bir qələm, bir vərəq kağız ver və-demək istədiklərini buraya köçür-de. Oxusan, orada sən bir şeir görəcəksən. İnanın, bu, qətiyyən şişirtmə deyil. O qədər zəngin söz ehtiyatına malikdirlər ki, adi danışıqlarından da şeir süzülür. C.Cabbarlı, M. Müşfiq, C. Novruz, S. Dağlı, və başqaları təkcə Xızının deyil, bütün Azərbaycanın mənəviyyat xəzinəsinin dürləridir.

Bizim Siyəzən rayonunun da adamlarının bir çoxu elə Xızı və ona yaxın dağların övladlarıdır. Amma etiraf edək ki, cəmi 5-10 kilometr məsafədəki bizlərin sədası elə də uzaqlara gedib çıxa bilmir. Görəsən, nədir bunun sirri?

Məncə, əsas səbəb yuxarıda, internat məktəbin nümunəsində qeyd etdiyim səfərbəredici birisinin olmamasıdır.

Bəli, bu, əvvəllər beləydi. İndi isə...

Rayonumuzun son aylar ictimai-siyasi, iqtisadi və digər sahələrində olduğu kimi, mənəviyyat sahəsində də bir intibah nümunələrinin, oyanış elementlərinin təzahürünü sezmək olar. Bilirsiniz, hər hansı bir sahədə inkişafa nail olmaq üçün birinci növbədə o sahəyə uyğun stimul seçilməlidir. Bu stimulu kəndin ağsaqqalı da yarada bilər, mahalın böyüyü də. Sözə qiymət verilməyən yerdə danışmağın, yaxud yazmağın nə faydası? Dediyim kimi, bu oyanışa haçansa rəvac verilməliydi. İnamla deyə bilərəm, bu addım atılıb. Və sanki daxili bir hiss mənə bu təkanın ümidverici olacağını pıçıldayır.

İndi meydan söz sərraflarınındır. Bilirsiniz, yeni söz demək, düşündürməyi bacarmaq, xüsusi qabiliyyətlə bağlı bacarıqdır. Bunu şeirlə, bədii üsulla çatdırmaq isə artıq Allahın səni sevərək bəxş etdiyi lütüfdür. Unutmayaq ki, şeir olsun, ya nəsr. Məna yükü olmalıdır, ilk növbədə.

Çoxdandır "canlı" kitab mütaliəsindən uzaqlaşmışdım. (İnternetdən oxuduqlarımı nəzərə almıram.) Rast gələn kitablar da məni özünə çəkə bilmirdi. Və bilmirəm bu mənim təqsirim idi, ya kitabın. Amma bu yaxınlarda əlimə bir kitab düşdü. İnanırsınız, oxudum, özü də bir nəfəsə. Demək istədiyim odur ki, yazı elə yazılmalıdır ki, bir nəfəsə oxunsun. Məncə, o kitaba verilən ən böyük qiymət də məhz budur-bir nəfəsə oxunan kitab

Onu da başa düşürəm ki, söz beyində qərar tutmaq istəmədikdə, rahat ola bilmirsən. Xiridarlar bunu daha yaxşı bilir. Sözü tutub saxlamaq olmur axı. Kiməsə danışmaq, ürəyini boşaltmaq ehtiyacı hiss edirsən. Bu mənada şeiriyyətlə, ədəbi yaradıcılıqla məşğul olanları az da olsa anlayıram.

Lakin... Yazın, yaradın. Amma hərdən dönüb bir ətrafınıza da baxın. Xəlvəti, öyrənmək üçün. Elə yazın ki, bizim «Çırağ»ı da əlüstü axtarsınlar.

Və sonda. Xahiş edirəm, mənim bu subyektiv qeydlərimi sadə bir oxucu fikri kimi qəbul edəsiniz.

**İ. İLYASOV.**

## *GET*

Deyilsən qəlbimdə əksi olan kəs,
Bax, necə gəlmişdin, eləcə çıx get.
Gəl vaxt itirməyək mənasız, əbəs,
Qurduğun ümidlə «nələr»i yıx, get.

Zorla alınmır ki, sevgi, məhəbbət,
Cismim od almadı baxışlarından.
Bunu sən də duydun, anladın, əlbət,
Barəndə buz, soyuq alqışlarımdan.

Bir də bəxtimizin tale qisməti,
Görüşdük, danışdıq, ayrılaq gərək.
Çəkməmiş ətrafdan nəzər-diqqəti,
Çaşmamış, azmamış, tez qərar verək.

Oyun oynamağın de, mənası nə,
Onsuz haçalanır bu yolun sonu.
Belədə qazanc tək kinayə, tənə,
Bir də sözümüzün nifrət, kin donu.

Deyilsən qəlbimdə əksi olan kəs,
Bax, necə gəlmişdin, eləcə çıx get.
Gəl vaxt itirməyək mənasız, əbəs,
Qurduğun ümidlə «nələr»i yıx, get.

**Nəcməddin MÜRVƏTOV,**
**şair,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

## ÖMÜR PAYI

Ölçülməsin vaxtla, zamanla
Qismətimizə düşən ömür payı.
Barını, varını tutub gedən
ömür karvanı
Yarıda qırılıbsa, taledən gileylənib,
Yüz yol söyməyək
vaxtı, zamanı.
Bu, ömürdür, bu, həyatdır, fərq etməz,
az, ya da çox yaşa.
Fərq etməz, təki şərəflə, təki qeyrətlə
vur ömrü başa.
Elə yaşa ki, köçüb getsən də, heçliyə dönmə,
Dostlar içində görünsün yerin.
Bax, bənövşənin də ömrü azdır,
Cəmisi beş, ya da onca gün.
Amma... o, Baharın qızı,
boylanıb kol dibindən
verir Bahardan soraq.
Qaratikan lap yüz il yaşasın,
nə fayda.
Peşəsi bu dünyada sancmaq, yalnız sancmaq.

## *HARAYA GEDİR BU DUMAN KARVANI?*

Dağlar yenə yandırıb qəlyanını,
Bəs görən haraya, hayana gedir
bu duman karvanı?
Bəlkə gedə bilmədiyim,
ürəyimdə qubara dönən,
yad əllərdə üşüyən,
ocaq yerləri sönən
Qara bəxtli Qarabağamı?
Təsadüfmi, yoxsa təbiətin işi,
bilmirəm niyə
Dağlar tez-tez bürünür
ağ örpəyə?
Bəs görən haraya, hayana gedir
bu duman karvanı?
Bəlkə sözün bitdiyi, səbrimizin dolduğu,
Hamımızın bir nəfər kimi
Silaha sarılıb
Savaşa başlamalı olduğu
qara bəxtli Qarabağamı?
Fikrimdə dolaşır qəribə sual:
Bəlkə bizdən öncə o, tələsir
qəribsəyən dağlara
çəksin sığal.
O, bizdən daha cəsarətli,
İstədiyi vaxt gedə bilir
istədiyi məkana.
O, meydan oxuyur Xocalını görməyən
gözü kor dünyaya,
ağı qaradan seçməyən zamana.
Dağlar yenə yandırıb qəlyanını,
Haraya gedir, hayana gedir
bu duman karvanı?..
Ürəyimdən nələr keçir:
Kaş o duman karvanını
quca biləydim,
Bircə anlığa, barı bircə anlığa
Qucub o yerlərə uça bileydim.

**Reyhan MURADOVA.**

## TAPACAQ

Müşfiqin məzarın tapmağa nə var,
Bir oxuyan tar gətirin, tapacaq...
Gümüş topuğunda zil qara xallar
Bir ədalı yar gətirin, tapacaq...

Sıldırım qayanın daşı gəlibsə,
Bulaqların gözdən yaşı gəlibsə,
Xızı dağlarının qışı gəlibsə,
Bircə ovuc qar gətirin, tapacaq...

Görün o obada torpaq qalıbsa,
Duyğu budağında yarpaq qalıbsa,
Yenə o sahildə o bağ qalıbsa,
Dərin, təzə bar gətirin tapacaq.

Əfşan dərd ucuna dərdi calayıb
Dizləri sıyrılıb, əli qanayıb.
Çır-çırpı toplayıb, ocaq qalayıb,
O ocaqdan qor gətirin tapacaq.

Şairi qarışıq bir zaman vurub,
Çovğunlar haqlayıb, sərt tufan vurub,
Qəlbi daşa dönmüş bir nadan vurub,
Kor gətirin, kar gətirin tapacaq.

Müşfiqin xəyalı gəzir haranı
Deyib axtarmayın dağı, aranı.
Onun əziz ruhu, adı, ünvanı
Hər ürəkdə var, gətirin, tapacaq...

**Çingiz DALĞIN.**

## *O ÜRƏK Kİ, SEVİR*

Deyirəm, a dostum, sevib-sevilmək,
Gənclik illərinin hərarətidir.
Hər yoldan ötənə «sevirəm» demək,
Bəzi sevənlərin pis adətidir.

«Ürəkdən-ürəyə yol var» deyərlər,
Bu, bir həqiqətdir düz düşünəndə.
Nə qədər xoşbəxtdir indi sevənlər,
Belə bir zamanda, azad vətəndə.

O ürək ki, sevir, demək təmizdir,
Təmizlik insanın ürəyindədir.
Əgər bilirsən ki, o natəmizdir,
Onu təmizləmək öz əlindədir.

Çalış ki, sevgidə sədaqətli ol,
Namuslu, vüqarlı, etibarlı ol,
Hər sözə aldanıb yolundan dönmə,
Yaşadıqca daim dəyanətli ol.

**Fidovsi ƏLƏMOĞLU.**

## DÜNYA HƏMİN DÜNYADIR

Deyirlər ki, dünya yaman dəyişir,
Dəryalarda balıqlar da dəyişir.
Yazıq dünya dəyişməsin neyləsin?
Millət indi internetlə sevişir.

Dünya, vallah, yenə həmin dünyadı.
Hərdən acı, hərdən şirin dünyadı.
Öz sirrini saxlar yenə özündə.
Çox biganə, çox da sərin dünyadı.

Bu dünyanın adaları yerində.
Dənizləri, dəryaları yerində.
Dünya necə dəyişir ki, bilmirəm?
Alov saçan səhraları yerində.

Növbələnər, bircə-bircə fəsillər.
Buludlardı, gah sevinər, gah küsər.
Keyf eliyər gilavarı, xəzrisi,
Hansı səmtə istəsələr, əsərlər.

Öz yerində bərqərardı, bu Dünya.
Özü boyda bir dəyərdi, bu Dünya.
Bəzən, dözməz, o da haqsızlıqlara.
Ondan ötrü bərqərardı, bu Dünya.

Kim desə ki, Dünya yaman dəyişir,
O, bilməz ki, vaxtla zaman dəyişir.
Dünya yenə asta-asta fırlanır.
Bir düşüncə, bir də insan dəyişir.

**Meyvə Allahyar qızı.**

# DƏYİRMİ MASA KEÇİRİLMİŞDİR

Gənclər Mərkəzində Siyəzən Rayon İcra Hakimiyyəti və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə «Gənclərin məşğulluq problemi: mövcud vəziyyət və perspektivlər» mövzusunda dəyirmi masa keçirilmişdir.

Tədbiri Gənclər və İdman İdarəsinin rəisi Nadir Məmmədov giriş sözü ilə açaraq bildirib ki, əmək bazarına daxil olmağa hazırlaşan gənclərin peşə və ixtisaslar üzrə düzgün isitiqamətləndirilməsi gənclərin gələcək məşğulluğunun təmin olunması və uğurlu əmək fəaliyyəti üçün xüsusi önəm kəsb edir. Ona görə də gənclərin düzgün peşə seçiminin dəstəklənməsi dövlət məşğulluq siyasətinin əsas istiqamətlərindən biridir. «Azərbaycan gəncliyi 2017-2021-ci illərdə» Dövlət Proqramının əsas istiqamətlərindən birini də məhz gənclərin məşğulluğunun təmin edilməsi və sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsinə dəstəyin verilməsi təşkil edir.

Daha sonra tədbirdə Gənclər və İdman İdarəsinin rəis müavini Vüsal Alışov, Məşğulluq Mərkəzinin işçisi Natəvan Məmmədova, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOB dostu) Siyəzən-Şabran rayonları üzrə nümayəndəsi Azər Pənahov, Siyəzən Peşə məktəbinin müəllimi Almaz Hüseynova və Siyəzən Rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Elvin Kərimov çıxış etmişdir. Onlar gənclərin innovativ potensialının və təşəbbüskarlığının dəstəklənməsi, onların ölkə iqtisadiyyatında daha səmərəli iştirakının təmin edilməsi, gənclərin iqtisadi fəallığının yüksəldilməsi, fermer təsərrüfatı və digər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclərə dəstək verilməsi, gənclərin sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, onların sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi, gənc sahibkarlar və fermerlər tərəfindən istehsal olunan məhsulların ictimaiyyətin diqqətinə çatdırılması məqsədi ilə qəbul olunan dövlət proqramları və həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

**********************************

## Qalib olmuşlar

Xırdalan şəhərində yerləşən AAAF Park Yaşayış Kompleksinin idman zalında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş boks üzrə Yeniyetmələrin VII Zirvə Beynəlxalq Oyunları keçirilib.

12 ölkədən 100-dən çox idman klubunun iştirak etdiyi həmin yarışda rayon boksçularından Nəcəfov Hüseyn 38 kq, Kərimov Nihad 44,5 kq və Hacıyev Rəvan 46 kq çəki dərəcəsində II yeri tutublar. Mayıllı Yüzbəy və Hüseynəliyev Təhmin isə 48 və 50 kq çəki dərəcələrində II yeri qazanıblar.

**********************************

## Nə? Harada? Nə zaman?

Rayon İcra Hakimiyyətinin və Siyəzən Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə iyunun 7-də Gənclər Mərkəzində 15 iyun «Milli Qurtuluş Günü»nə həsr olunmuş Nə? Harada? Nə zaman? intellektual oyunu üzrə gənclər arasında rayon çempionatı keçirilib.

Çempionatda rayon tam orta məktəblərinin yuxarı sinif şagirdlərindən ibarət «Olimp 476», «Deus», «Aysberq», «Zəfər», «Likantropiya», «Viktoriya», «Xəzər» və «Real» komandaları iştirak ediblər. Yarış ərzində komandalara müxtəlif mövzuları əhatə edən 24 sual təqdim olunub.

2 turun ümumi nəticəsinə görə, şəhər 5 saylı tam orta məktəbin «Aysberq» komandası reytinq xalına əsasən I yeri tutaraq rayon çempionatının qalibi olub. Şəhər 4 saylı tam orta məktəbin «Deus» komandası II, 2 saylı tam orta məktəbin «Real» komandası isə III yeri tutub.

Qalib komandalar yarış təşkilatçıları tərəfindən kubok və fəxri fərmanlarla təltif olunublar.

**N. MƏMMƏDOV,**
**Gənclər və İdman İdarəsinin rəisi.**

## ELAN

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biri ölkədə məşğulluq imkanlarının artırılması, əmək resurslarının səmərəli məşğulluğunun təminatıdır. Bu siyasətə uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən aktiv məşğulluq tədbirləri ildən-ilə gücləndirilir.

**2019-cu ilin iyul ayının 19-da saat 11-00-da** Siyəzən rayon Mədəniyyət Sarayının binasında Siyəzən rayon Məşğulluq mərkəzinin təşkilatçılığı ilə «Əmək Yarmarkası» keçiriləcəkdir. Vakant iş yerləri təklif edən müəssisələrin nümayəndələrinin də iştirak edəcəyi yarmarkada işsiz və işaxtaran şəxslərə peşə bacarıqlarına, əmək vərdişlərinə və seçimlərinə uyğun boş (vakant) iş yerlərinə göndərişlər veriləcək. Əmək bazarının tələblərinə uyğun yeni peşələrə yiyələnmək istəyən şəxslər peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmək üçün qeydiyyata alınacaqlar. Haqqı ödənilən ictimai işlərdə çalışmaq istəyənlərin də qeydiyyatı aparılacaq.

**Siyəzən rayon**
**Məşğulluq Mərkəzi.**

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 1963
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
3308001944550025015
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83